Cümhuriyyət dövründə Azərbaycan qadını

Amerika və Avropa qadınlarının bir əsr boyu öz hökumətlərindən ala bilmədiyini Azərbaycan qadını cəmi bir ildə aldı ....

İradə Cəlil

"Qadın - bizi uşaqkən qoruyan, gəncliyimizdə xoşbəxt edən, qocalıqda təsəlli verən mələkdir". Bu sözü ilahiyyatçı, filosof Avreli Avqustin 16 yüz il bundan qabaq Şimali Afrikada - indiki Əlcəzairin indiki Annabasında dilə gətirib.

Avqustindən üzübəri bütün dövrlərdə qadınlar toplumun, insanlığın gözəl yarısı olmaqla yanaşı həm də yüksəlişinin ilham pərisi olub. Böyük Hüseyn Cavid də deyirdi: "Süqutlanan bəşəriyyət qadınla yüksələcək". Bu, insanlıq tarixinin dəlalətə - yorumlanmadan isbatlandığı, bir anlamda da isbata ehtiyac duymayan (teorem olmayan, aksiom olan) gerçəyidir. Ən qəliz münaqişələr belə ananın başından alıb atdığı örpəklə soyuşubsa tariximizdə, deməli qadın həm də barış mələyidir. "Müharibələrdə oğullar fərqli şəkildə ölür, ancaq bütün analar eyni cür ağlayır" deyib ağıllıdan biri. Bu səbəbdən savaş alovları ilə qovrulan Planetimizdə - dövrümüzdə də qadının bütün anlamlarda rolu artıb. Özəlliklə də qadın azad olanda onun öz zərifliyindən aldığı gücü qat-qat artır. Bu üzdən Azərbaycan qadınının azadlığa çıxdığı tarix çox önəmlidir. Biz tarixən feminist ruhlu xalq olmuşuq; qadını, ananı Vətənlə eyniləşdirmişik, Ana-Vətən tandemi mənəvi mədəniyyət abidəmiz olan "Kitabi-Dədəm Qorqud"da dəyişkək dəyərini alıb. Qadına İslamda da böyük dəyər verilir; Qurani-Kərimdə qadın, onun hüquqları, ana müqəddəsliyi geniş əks olunub.

Ötən yüzilin əvvəlində - hələ Cümhuriyyətin yaranmasından xeyli qabaq - 1898-ci ildə Əhməd bəy Ağaoğlu "Kaspi" qəzetində çap olunmuş "İslam və qadın" adlı məqaləsində yazırdı: "Quran böyük və nəcib işi gördü: o, Asiya məkanında qadını ucaltdı, ona bütün Şərqdə misli görünməmiş və eşidilməmiş hüquqları bəxş etdi, onu matronadan zövcəyə və anaya çevirdi".

Azərbaycanın milli xadimləri qadının azad olunmasının tərəfdarı idilər. Ancaq onlar qadın məsələsində dinin rolunu da inkar etmirdilər. Sözün açığı, İslamda qadın azadlığı ciddi şəkildə qoyulsa da, məişət münasibətlərində patriarxal idarə tərzi dominantlıq edib.

XX yüzilin başlanğıcında Azərbaycanın maarifpərvər mühitində feminist baxışların güclənməsi patriarxal məişət tərzinə qarşı ciddi çağırış idi. Həm də Azərbaycan siyasi qüvvələri çar Rusiyasının müstəmləkə rejiminə qarşı daha nizamlı mübarizə aparmaq üçün geniş qadın kontingentinin dəstəyinə ehtiyac duyurdu. Maarifpərvər qadınlar cəmiyyətin ziyalı təbəqəsi idi və onlar savadsız qadınların ictimai-siyasi şüurunu və dünyagörüşlərinə ciddi təsir göstərmək qabiliyyətinə malik idilər. O dövrün lider partiyası olmuş "Müsavat" da, ədindən göründüyü kimi, insanlar arasında hüquq bərabərliyini təbliğ edirdi.

Müsəlman Şərqində qadına səsvermə hüququ rəsmən tanındığı ilk ünvan Azərbaycan olub. Azərbaycan qadınına səsvermə hüququ əldə etməsi beynəlxalq sufrajist təşkilatların qələbəsi ilə eyni vaxtə düşüb və heç də təsadüfi xarakter daşımayıb. Azərbaycanda feminizm və sufrajizm Qərbdəki kimi güclü siyasi hərəkata çevrilməsə də, qadınlara seçki hüququnun verilməsi milli burjuaziyanın fəaliyyət proqramının prioritet istiqamətlərindən biri idi.

Qadınlara seçki hüququ verilsinmi?

Tarixçi Vasif Qafarovun sözlərinə görə, 1907-ci ildə Rusiya Dumasında Azərbaycanı təmsil edən deputat Xəlil bəy Xasməmmədov müsəlman qadınlarına seçki hüququnun verilməsini təklif edib.

Müsəlman fraksiyası gərgin müzakirələrdən sonra bununla razılaşıb. Bundan əvvəl isə Əlimərdan bəy Topçubaşov Rusiya müsəlmanlarının 1906-cı ilin avqustunda Nijni-Novqorodda keçirilmiş üçüncü qurultayında qadınların seçki hüququna dair təklif irəli sürmüş və hücumlara məruz qalmışdı. Uzun mübarizədən sonra qadınların seçki hüququ İslam qanunlarına uyğun olaraq proqrama daxil edilib. "Çar müstəmləkə sisteminin çökməsi və milli-azadlıq hərəkatının baş qaldırması bu hüququn gerçəkləşməsinə zəmin yaratmışdı. Azərbaycan qadınlarının ictimai-siyasi həyata cəlb etmək üçün bir sıra təşəbbüslər edilmişdi".

1917-ci ildə fevral inqilabı nəticəsində Rusiyada çarizm süqut edəndən sonra Azərbaycanda demokratik dəyişikliklərin həyata keçirilməsi üçün geniş imkanlar açılmışdı. Bu proseslər fəaliyyətlərini gücləndirən qadınları da əhatə edirdi. Onlar Ümumrusiya müsəlmanları qurultayında iştirak etmişdilər. 1917-ci il 15-20 aprel tarixlərində Bakıda keçirilən Qafqaz müsəlmanlarının qurultayında Şəfiqə xanım Əfəndizadə və Sara xanım Talışxanovanın başı açıq, yaylıqsız kürsüyə qalxıb çıxış etməsi alqışlarla qarşılanmışdı. "Açıq söz" qəzeti qurultayın qadınlar adından təbriki ilə bağlı yazırdı: "Böyük İsmailiyyə" binası alqışlarla gurultuyur... "Yaşasın hürriyyət-nisvan" sədalarıyla alqışlar biri-birinə qovuşuyor". Bu hadisə keçmiş qazi Ağa Mir Məhəmməd Kərimin və başqa ruhani nümayəndələrinin narazılığına səbəb olmuşdu. Ancaq qurultay iştirakçılarının əksəriyyəti qadınların hərəkətini alqışlamışdı. Qurultayda qadın məsələsinə həsr edilmiş qətnamə də qəbul edilmişdi.

Qurultaydan sonra Bakının müsəlman məhəllələrində belə bir şayiə yayılmağa başlamışdı ki, guya təşkilatçılar müsəlman qadınlarını çarşabsız gəzməyə və enənəvi Şərq ayaqqabısını Avropasayağı çəkmələrə əvəz etməyə çağıracaqlar. Hətta söyləyirmişlər ki, bəzi yerlərdə kişilər Avropasayağı geyinən qadınları yolda saxlayıb, çəkmələrini soyundurmuşlar. Bu cür söhbətləri eşidən kütlə isə Bakı Müsəlman İctimai Təşkilatları Komitəsinin iqamətgahı olan "İsmailiyyə" binasını dağıtmağa hazır idi.

V. Qafarov bildirir ki, müşahidə olunan proseslər Azərbaycanın milli liderlərini, oxuculardan sosial qruplarını, ilk növbədə şəhər və kənd əhalisinin aşağı təbəqələrinin kütləvi şüuru üzərində ciddi düşünməyə və qarşıdakı illərdə köklü, radikal yeniliklərə ehtiyatla yanaşmağa vadar edirdi: "Bir daha sübut olundu ki, "qaragüruhun cəmiyyətdə zidd çıxışları" ilə milli hərəkatın rəhbərlərinə xas olan mütərəqqi, maarifçi şüur arasında böyük uçurum var. Lakin bu hadisələrdən dərhal sonra, 1917-ci ilin mayında ictimai komitələrə birinci seçkilər zamanı müsəlman qadınlarının ictimai fəallığı kimi gözlənilməz bir yenilik baş verdi".

1919-cu ildə qadınlara verilən seçki hüququ praktiki baxımdan gerçəkləşməyə başladı. İyulun 21-də parlament bu məsələ ilə bağlı qanun qəbul etdi.

Azərbaycan Məclisi-Müəssisanı seçkilər haqqında Əsasnaməyə görə qadınlara dövlət hakimiyyəti orqanlarını seçmək və seçilmək hüququ verildi. Bu məsələ ilə əlaqədar bir maraqlı məqamı da xatırlamaq da lazımdır. Azərbaycanda qadınlar, bu qanunun qəbul edilməsi uğrunda Amerika və Avropa bacılarının qadınlarından fərqli olaraq, böyük mübarizə aparmamışdılar. Müqayisə üçün deyək ki, ABŞ-da qadınlar seçki hüququnu Azərbaycandan cəmi bir ay əvvəl əldə ediblər. 1919-cu il iyunun 14-də Senat ABŞ Konstitusiyasına 19-cu düzəlişi qəbul edərək qadınlara səsvermə hüququnun verilməsini təsdiq etdi. Lakin bu hüququn qazanılması uğrunda Amerika qadınları 100 ildən artıq inadlı mübarizə aparmışdı və rəsmən 1920-ci ildən bu hüquqa malik oldular.

İlk qadın məktəbləri...

V. Qafarovun sözlərinə görə, qızlar üçün ilk müəllimlər seminariyasının fəaliyyəti bu dövrə təsadüf edir: "1918-ci il sentyabrın əvvəllərində qızlar üçün Bakı müəllimlər seminariyası I sinfə qəbulun aparılması haqqında elan verir. Buna, yuxarı ibtidai məktəbi və 4 sinifli qızlar gimnaziyasını bitirən şagirdlər imtahansız qəbul edilirdi. Göstərilən təhsil pilləsi olmayan qızlar isə imtahan verirdilər. Seminariyada təhsil müddəti 4 il idi. Maddi cəhətdən ehtiyacı olan, təhsildə müvəffəqiyyətlər qazanan şagirdlərə hər ay 25 manat məbləğində təqaüd verilirdi. Lakin xalq təhsili nazirinin əmrinə görə 1919-cu il yanvarın 1-də qızlar üçün Bakı müəllimlər seminariyası oğlanlar üçün seminariyaya çevrildi".

1918-1920-ci illərdə maarifpərvər qadınlar milli məktəblərin yaradılmasında daha böyük fəallıq göstərmişdilər. Məsələn, Azərbaycan Cümhuriyyətinin yaradıcılarından biri olmuş və Fətəli Xan Xoyskidən sonra hökumətə başçılıq etmiş Nəsib bəy Yusifbəylinin həyat yoldaşı Eynülhəyat xanım ilk milli qız gimnaziyasında dərs demiş, Maarif Nazirliyində inspektor işləmişdi. Sankt-Peterburqda təhsil almış ilk azərbaycanlı qız Səlimə xanım Yaqubova Bakıda 1-ci Ünas milli gimnaziyasının müdiri təyin edilmiş, Azərbaycanın milli dirçəlişinin fəal qadın qurucularından biri olmuşdu. 1918-ci ildə Qazax qəzası xalq məktəblərinin inspektoru təyin olunmuş görkəmli maarif xadimi Mədinə xanım Qiyasbəyli bir il sonra Bakıda öz mənzilində pedaqoji kurs açmış, Azərbaycanın ilk maarifpərvər qadınları - Şəfiqə xanım Əfəndizadəni, Xədicə xanım Ağayevanı bu işə cəlb etmişdi.

Cümhuriyyət rəhbərliyi maarifçilik sahəsində müəyyən nailiyyətlər əldə edə bilmişdi. Ümumiyyətlə, bu sahə qadınların hüquq bərabərliyi ideyasının realizə olunması üçün daha münasib idi. 1919-cu ilin 17 iyul tarixli qərarındakı pedaqoji kursların açılması haqqındakı qanuna əsasən. Bakı və Gəncədə qadınlar üçün iki aylıq pedaqoji kurslar fəaliyyət göstərməyə başladı. 1918-ci ilin sentyabrında Bakı, Gəncə və Şəki şəhərlərində qadınlar üçün iki illik kursların açılması haqqında da qanun layihəsi hazırlanmışdı. 1918-1920-ci illər ərzində orta məktəblərdə oxuyan azərbaycanlı qızların sayının sabit şəkildə artması müşahidə olunurdu. 1918-1919-cu tədris ilində Gəncə gimnaziyasında 4 qız oxuyurdusa, 1919-1920-ci tədris ilində qız şagirdlərin sayı 298 nəfər təşkil edirdi. Bakı Dövlət Universitetinin təsis edilməsi haqqında 1 sentyabr 1919-cu il tarixli qanuna görə, "tələbələrin sırasına istər kişi, istərsə də qadın cinsindən olan şəxslər" qəbul edilirdi. İstəlik, qadınlar "tədris xidməti, həmçinin idarəçilik və təsərrüfat hissəsindəki vəzifələrə qəbul oluna bilərdilər". Bir faktı da qeyd etmək lazımdır.

Ardı səhifə 15-də

Cümhuriyyət dövründə Azərbaycan qadını

Əvvəli səhifə 13-də

Universitetin yaradılmasından bir qədər əvvəl parlament rus-müsəlman qızlar nəzdindəki pedaqoji kursların məzunlarını universitetə daxil olmaq hüququndan məhrum etmişdi. Bunun nəticəsi olaraq, azərbaycanlı qız məktəbinin tələbələrinin Universitetdəki sayı "cüzi miqdarda" idi. Yaranmış vəziyyəti aradan qaldırmaq üçün 1919-cu il dekabrın 6-da maarifi nazirinin müvafiq xahişindən sonra Universitetin tibb fakültəsinə üç azərbaycanlı qız tələbə qəbul olundu.

İlk azərbaycanlı pianoçu qadınlardan biri, 1901-1911-ci illərdə Tiflisdə "Müqəddəs Nina" məktəbində təhsil almış, sonra isə fortepiano üzrə xüsusi kurs keçmiş Xədicə Osman qızı Qayıbova 1919-cu ildə Bakıya köçərək Azərbaycanda musiqi təhsili sistemininin yaradılmasında iştirak etmiş, onun təşəbbüsü və rəhbəriyi ilə 1920-ci ildə Bakıda "Qısamüddətli Şərq musiqisi kursları" açılmışdı.

Gəncədə ziyalı qadınlar xeyriyyə cəmiyyəti yaradaraq şəhərin

mədəni həyatında fəal iştirak edirdilər. Bu işdə Xədicə xanım Ağayeva, Cavahir xanım Rəfibəyova, Həcər xanım Şeyxzamanova və başqaları böyük səy göstərir, istedadlı qızların təhsil almasına kömək edir, qadınlar üçün tamaşalar verir, daşnak fitnəkarlarının törətdikləri qırğınlar nəticəsində kimsəsiz, yetim qalmış uşaqları himayəyə götürürdülər. Gövhər xanım Qacar, Həmidə xanım Cavanşir, Nigar xanım Şıdinskaya, Məsmə xanım Aşurbəyli-Rzayeva və bir çox başqa qeyrətli qadınların yaratdıqları qadın xeyriyyə cəmiyyətləri bu sahədə çox böyük işlər görmüş, adlarını Azərbaycanın xeyriyyəçilik hərəkatı tarixinə əbədi həkk etmişdilər.

1918-1920-ci illərdə Azərbaycanın tərəqqipərvər qadın ziyalıları - Məryəm xanım Bayraməlibəyova Lənkaranda, Gövhər Şövqiyyə Şamaxıda, Bülbül Kazımova Gədəbəydə, Firuzə Ağayeva, Yaqut Ağayeva Gəncədə, Səidə Şeyxzadə, Rəhilə Hacıbababəyova, Sara Vəzirova, Hənifə xanım Məlikova, Zərri Şaxtaxtinskaya və başqaları Bakıda xalq maarifinin inkişafına böyük xidmət göstərmişdilər.

Onu da demək lazımdır ki, Azərbaycan hökuməti çalışırdı ki, qadınlara verilən bərabər hüquqlar formal xarakter daşımasın. Cümhuriyyət dövründə əldə edilmiş təcrübəni təhlil edərkən, M.Ə.Rəsulzadə aprel çevrilişindən sonrakı dövrdə qələmə aldığı "Əsrimizin Siyavuşu" əsərində qeyd edirdi ki, "kişi və qadın onlardan birinə məxsus imtiyazlar olmadan məmləkət idarəsində iştirak edir, qanunverən qurumlara girmək hüququna malik idilər... Maarif, nəşriyyat işində qadınların tərbiyəsi də kişilərlə bərabər tutulurdu".

Maraqlı məqam ondan ibarətdir ki, məhz 1918-1920-ci illərdə sufrajizm Belçikada, Almaniyada, Polşada, Kanada və ABŞ-da hüquqi qiymət almışdı.

XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətinin ictimai-siyasi mühitində özünə yer eləmiş humanist və demokratik ideallar Cümhuriyyət hökumətinin prioritet sahəsinə çevrilmişdi. Bunun nəticəsi idi ki, digər ölkələrdə qadınların uzunmüddətli mübarizəsi sayəsində əldə etdikləri kişilərlə eyni bərabərlik hüquqlar Azərbaycan qadınlarına tarix baxımından çox qısa bir vaxtda nəsib oldu.

Amerika və Avropa qadınlarının bir əsr boyu öz hökumətlərindən ala bilmədikləri səsvermə hüququnu Azərbaycan qadınları öz gənc hökumətlərindən cəmi bir il ərzində əldə edə bilmişdilər. Bu, tariximizin ən şərəfli səhifəsi olaraq dəyərləndirilib və hər zaman da belə dəyərləndiriləcək.

"Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və "Kaspi" qəzetinin keçirdiyi müsabiqəyə təqdim etmək üçün"

Bizim yol.- 2018.- 2 fevral.- S. 15.